Baş əydikcə torpağa başım göyə yüksəlir,
Bağım,barım, baharım düşmən bağrını dəlir.
Bir igidim gedəndə yerinə yüzü gəlir,
    Xuraman ismətlidir, yaşayır Azərbaycan,
    Amma bəxti gətirmir xain qonşu sarıdan.
İşığa tapınıbdır torpağımın hər yeri,
Gecənin əzabına dözən açar səhəri.
Bir Xeyiri yıxammaz Əhrimənin min Şəri,
    Günü qara olsa da xain qonşu sarıdan,
    Yaşayıb, yaşayacaq, yaşayır Azərbaycan!

*"Bərəkət" qəzeti, 7 may 1992.*

## BİL, 20 YANVARDIR

Gördün ki, şimaldan şütüyür tanklar,
Gördün ki, havada barıt iyi var,
Ah çəkir analar, ağlayır zar-zar -
Bil, 20 Yanvardır!
    Gördün avtomatdan güllə ələnir,
    Azadlıq yoluna qan səpələnir,
    Fəryadıma Allah göylərdən enir -
    Bil, 20 Yanvardır!
Gördün buludlarda cizlənir səhər,
Matəm köynəyini geyinir şəhər,
Üçrəngli bayraqdan asılıb kədər -
Bil, 20 Yanvardır!
    El ağı deyəndə şəhid anama,
    Düzdə ceyranıma, göldə sonama,
    Kişilər ağlamaz... ağlayır amma -
    Bil, 20 Yanvardır!

Gördün AZADLIĞIN doğur ülkəri,
Toy-düyün bürüyür bizim elləri,
Onun təməl daşı, onun cövhəri -
Bil, 20 Yanvardır!

*"Həyat" qəzeti, 23 yanvar 1993.*

## HƏRBİ HAZIRLIQ NƏDİR?!

*AXC...orta məktəblərdə hərbi hazırlıq proqramlarının ləğvinə, ali məktəblərdə isə onun məhdudlaşdırılmasına... çalışır.*

*Azərbaycan Xalq Cəbhəsinin proqramından (6-cı bölmə, 11-ci bənd).*

Dəng eləmə oğlumu, boyu tüfəng boydadır,
Sürünür torpaq üstə... məgər bu da qaydadır?
Ölməyi öyrət ona, öldürmək nə faydadır?
Kimə gərəkdir sambal, əsas mətləb saydadır-
Hərbi hazırlıq nədir, küt olur-olsun balam,
Əliyalın, silahsız, lüt olur-olsun balam!

Gül kimi nəğmə dərsi dəyər min avtomata,
Birdən güllə açıldı... əlindən çıxdı xəta,
Məktəb cavab verəcək onda bu camaata?
İgid keçər hücuma havadan tuta-tuta-
Hərbi hazırlıq nədir, küt olur-olsun balam,
Əliyalın, silahsız, lüt olur-olsun balam!

Gör nə vaxtdır əlləşir məktəbdə acqarına,
Bir ətək pul saymışıq körpənin paltarına.